*UOT 37.0*

***Zülfiyyə Vaqif qızı Tanrıverdiyeva***
*Mingəçevir Dövlət Universitetinin pedaqogika və psixologiya kafedrasının müəllimi*
*https://orcid.org/0009-0003-0995-1961*

# TƏLƏBƏLƏRİN TƏLİM FƏALİYYƏTİ MOTİVASİYASINDA MÜƏLLİM SƏRİŞTƏLİLİYİ VƏ USTALIĞI

***Зульфия Вагиф гызы Танрывердиева***
*преподаватель кафедры Педагогики и психологии*
*Мингячевирского Государственного Университета*

# МАСТЕРСТВО И КОМПЕТЕНТНОСТЬ УЧИТЕЛЯ ПРИ МОТИВАЦИИ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ

***Zulfiya Vagif Tanriverdieva***
*lecturer at the department of Pedagogy and psychology*
*at Mingachevir State University*

# TEACHER'S SKILLS AND COMPETENCE IN MOTIVATING STUDENTS' LEARNING ACTIVITIES

**Xülasə:** Dövlətin siyasətinin ən prioritet sahələrindən biri təhsilin olduğunu nəzərə alsaq, səriştəli müəllim hazırlığı ümummilli və ümumdövlət əhəmiyyəti daşımalıdır. Səriştəli müəllim deyəndə ilk növbədə yüksək ixtisaslı, mükəmməl savadlı, mənəviyyatca zəngin, peşəsini ürəkdən sevən, müasir təlim metodlarını dərindən bilən, millətini və Vətənini dərindən sevən insan nəzərdə tutulur. Səriştəli müəllim təbii ki, birdən-birə yarana bilməz. Bunun üçün yüksək biliklə yanaşı təcrübə əldə edilməsi, peşəkarlıq səviyyəsinin artması çox əhəmiyyətlidir. Səriştəli müəllim hazırlığının əsası ali təhsilin bakalavr pilləsində ilk kursdan etibarın qoyulmalıdır. Burada artıq təhsil verənlərin səriştəliliyi meydana çıxır.

***Açar sözlər:*** *səriştəli müəllim, motivasiya, tələbələr, təhsil, şəxsiyyət*

***Резюме:*** Учитывая, что одним из наиболее приоритетных направлений государственной политики является образование, подготовка компетентных учителей должна иметь общенациональное и государственное значение. Компетентный учитель – это, прежде всего, человек высококвалифицированный, прекрасно образованный, богатый духовно, любящий свою профессию от всего сердца, глубоко владеющий современными методами преподавания, глубоко любящий свой народ и Родину. Для этого очень важно получение опыта наряду с высокими знаниями и повышение уровня профессионализма. Основу компетентной подготовки учителей следует закладывать с первого курса бакалавриата высшего образования. Здесь проявляется компетентность педагогов.

***Ключевые слова:*** *компетентный учитель, мотивация, студенты, образование, личность.*

***Summary:*** Considering that one of the highest priority areas of state policy is education, the training of competent teachers should be of national and state importance. A competent teacher is, first of all, a highly qualified, well-educated, spiritually rich person, who loves his profession with all his heart, has a deep knowledge of modern teaching methods, and deeply loves his people and his Motherland. For this, it is very important to gain experience along with high knowledge and increase the level of professionalism. The foundation for competent teacher training should be laid in the first year of undergraduate higher education. This is where the competence of teachers comes into play.

***Key words:*** *competent teacher, motivation, students, education, personality.*

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında deyilir: "Müəllim amili təhsilalanın öyrənməsi və inkişafı, nailiyyətlərinin monitorinqi prosesində həlledici rol oynayır. Təhsilalanların savadlı və səriştəli şəxs kimi formalaşmasına müəllimin təsiri müəllimin akademik bacarıqlarından və peşəkarlıq səviyyəsindən xeyli asılıdır. Müəllimin keyfiyyətləri ilə təhsilalanların nailiyyətləri arasında sıx korrelyasiya mövcuddur. Bu baxımdan respublikamızın ali və orta ixtisas təhsili müəssisələrində müəllim hazırlığının təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməsi günümüzün vacib problemlərindən birinə çevrilmişdir. Səriştəyə əsaslanan müəllim kadrlarının yetişdirilməsi üçün bu çox böyük önəm kəsb edir [2].

Səriştəlilik müəllimin şəxsi keyfiyyətlərindən çox asılıdır. Ona görə səriştəlilik peşəkarlığa və şəxsi keyfiyyətlərə əsaslanır. Müəllimin işgüzarlığı, proseslərə yaradıcı yanaşma bacarığı, müstəqil qərar çıxarması, özünə inamlı olması, insanlara nikbin və humanist yanaşması şəxsi keyfiyyətlərindəndir.

Pedaqoji səriştəliliyi inkişaf etdirmək, öz üzərində çalışmaq, pedaqoji innovasiyalara yiyələnmək, öz peşə ustalığını yüksəltmək, peşə mərifətini və pedaqoji məharəti inkişaf etdirmək deməkdir. Müəllimin peşə səviyyəsinin yüksəlməsi bilavasitə cəmiyyətin iqtisadi-sosial və mənəvi inkişafından asılıdır. Məhz, azad və yaradıcı düşünən, öz pedaqoji fəaliyyətinin nəticələrini düzgün qiymətləndirən və gələcəyi proqnozlaşdıran, təhsil prosesini düzgün modelləşdirən pedaqoq qarşıya qoyduğu məqsədə uğurla çata bilər. Pedaqoji fəaliyyət dedikdə gənc nəslin tərbiyə olunmasına yönələn fəaliyyət başa düşülür. Buna görə də müasir dövrdə dinamik dəyişən dünyamızda fəal, hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirə bilən müəllimə - yaradıcı düşünən, ixtisasını dərdindən bilən rəqabətə qabil müəllim şəxsiyyətinə böyük ehtiyac duyulmaqdadır. Mükəmməl təhsil sisteminə malik olmaq dövlətin gələcəyi və müstəqilliyinin mühüm şərtidir.

Bunun üçün motivasiya əsasdır. Motivasiya hər hansı işin səmərəliliyinin açarıdır. Hər bir tələbə |pedaqoji təcrübədən özünə lazım olan təlimi və təhsili, dərs demək qabiliyyətini, dərs prosesinin təşkili mexanizmini və s. müəllim şəxsiyyətinə lazım olan davranış və qabiliyyətləri eyni səviyyədə mənimsəyə bilməz. Bunun üçün də müəllim tələbəyə maksimum dərəcədə şəxsiyyətinə uyğun, fərdi yanaşmalı, ona müəllimlik peşəsini öyrətməlidir.

Şəxsiyyətə fərdi yanaşmanın vacibliyinə dair alimlər yazırdılar: "İnsanın şəxsiyyəti bəzən hamıda olduğu kimi, bəzən bir neçə insanda olduğu kimi, bəzən də heç kimdə olmadığı kimi olur" [4]. Yuxarıda göstərilən səbəbləri əsas tutaraq müəllim tələbələrə fərdi yanaşmalı və unutmamalıdır ki, şəxsiyyətin təhlili çoxşaxəli, dərki isə, mürəkkəb bir prosesdir. O, demək olar ki, hər şeyi əhatə edir. Yəni şəxsiyyət "bütöv insan" anlayışı ilə əlaqədardır. Buraya insanın xarici görünüşü, xüsusiyyətləri, özünü dərki və qəbul etməsi, həmçinin müxtəlif situasiyalarda digər insanlarla münasibətləri və s. daxildir.

Səriştəli müəllim gənclərin dərs deməsi üçün motivasiya etməlidir. Motivasiya sözü "reallaşdırılmağı vacib olan arzu" və yaxud da "ehtiyacın fəal forması" mənasını verən "motiv " kökündən götürülmüşdür. "Motivasiya insanın daxilində olan, onu hərəkət etməyə həvəsləndirən arzudur" [4].

Bəzi alimlər motivasiyaya belə bir tərif verir: "Motivasiya şəxsin məqsədinə istiqamətlənmiş modeldə hərəkət etməsinə səbəb olan, gərginlik və ya natarazlıq yaradan qarşılanmamış ehtiyacıdır. Bu ehtiyacın qarşılanması şəxsin tarazlığını bərpa edir" [4].

Bu tərif özlüyündə motivasiyanm özəmini göstərərək, orqanizmin təyin olunmuş məqsədlərinə çatmaq üçün malik olduğu hazırlıq dərəcəsi ilə əlaqədardır, hazırlıq dərəcəsinin təbiətini müəyyənləşdirir və onu oyandıran gücü təxmin edir. Təbii ki, səriştəli müəllim başa düşməlidir ki, savadlı müəllim olmaq hələ yaxşı müəllim olmaq deyil, bunun üçün psixoloji cəhətdən də hazır olmalıdır ki, gələcəkdə qüsursuz fəaliyyət göstərə bilsin.

Motivlərin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Bu mahiyyət etibarilə şəxsiyyəti fəaliyyətə hazırlamaq deməkdir. İnsan fəaliyyətinin spesifik xüsusiyyəti ondan ibarətdir ki, o, həmişə məqsədyönlüdür. Motiv insanı fəaliyyətə təhrik edir və onun fəaliyyətinin istiqamətini müəyyənləşdirir.

İnsan idrak prosesləri vasitəsilə ətraf aləmi öz beynində əks etdirir, hiss və emosiyaların köməyilə onlara münasibətini bildirir. Deməli, hisslər insanın münasibəti ilə əlaqədardır. Mü-

nasibət isə şüurla bağlı olan psixi faktdır. Beləliklə, hisslər insanın dərk etdiyi cisim və hadisələrə, başqa adamlara, həmçinin özünün rəftar və davranışına, fikir və arzusuna bəslədiyi münasibəti ifadə edəcək psixi prosesdir.

Təhsil prosesinin əsas siması müəllimdir. Ümummilli liderimiz Heydər Əliyev müəllim əməyini yüksək qiymətləndirərək deyirdi: "Mən yer üzündə müəllimdən yüksək ad tanımıram. Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi vardır. Məhz müəllim doğma yurdumuzu sevməyi, hamının rifahı naminə vicdanla işləməyi müdrikliklə və səbirlə bizə öyrətmiş və öyrədir. Hər birimizin öz müəllimi vardır və biz bütün ömrümüz boyu onun xatirəsini hörmətlə, minnətdarlıqla qəlbimizdə yaşadırıq" [1].

Müəllimin pedaqoji səriştəliliyi və peşəkarlığı onun yüksək əxlaqi keyfiyyətlərində, milli-mənəvi zənginliklərə, bəşəri dəyərlərə, geniş dünyagörüşünə sahib olmasında, öz ixtisasını dərindən bilməsində və onun öyrətmə qabiliyyətində, pedaqoji, psixoloji və metodiki biliklərə malik olmasında, öz yetişdirmələrinə dərin hörmət və qayğıkeşliklə yanaşmasında, tədqiqatçılıq və natiqlik qabiliyyətində, yüksək mədəni davranışında, habelə sağlam, xoş görünüşündə, mehriban ünsiyyətində, səliqəli geyimində özünü göstərir. Səriştəli müəllimin mühüm bir keyfiyyəti onun fəal idarəçi olmasındadır. Müəllimin fəal idarəçiliyi onun peşə ustalığının, səriştəliliyinin bir göstəricisidir.

Müəllimin peşə səriştəsinin formalaşdırılmasının aşağıdakı mərhələlərini ayırmaq olar:

1. Səriştəli müəllimin öz fəaliyyətini müntəzəm təhlil etməsi, davranış və fəaliyyətinə nəzarət etməsi, uğurlu və uğursuz səbəbləri ayrıca ayırd etməsi.

2.Səriştəli müəllimin özünüinkişafını, özünütəkmilləşdirməyi planlaşdırması (məqsəd, vəzifələr, həlli yolları).

3. Səriştəli müəllimin özünənəzarət, özünütəhlil və özünükorrektə etmək bacarığı.

4. Səriştəli müəllimin öz üzərində müstəqil çalışmaq, yaradıcı fəaliyyətini inkişaf etdirmək, tədqiqatçılıq bacarığını inkişaf etdirmək bacarığı.

Səriştəli müəllim zehni əməyin elmi təşkili prinsiplərini yaxşı bilməli, əməyini düzgün planlaşdırmağı bacarmalıdır.

Səriştəli müəllimin yüksək əxlaqi keyfiyyətlərə, milli - mənəvi zənginliklərə, bəşəri dəyərlərə sahib olması, ixtisasını dərindən bilməsi, öz yetişdirmələri ilə düzgün ünsiyyət və münasibətdə olması onun peşə kompetensiyasının əsasını təşkil edir. Təhsil strategiyasında bu barədə deyilir: "...milli- mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq" təhsil işçilərinin qarşısına mühüm bir vəzifə kimi qoyulmuşdur [2].

Motivləşdirmə anlayışı çoxaspektli və çox istiqamətlidir. Fred Lyutens göstərir ki, ayrı-ayrı müəlliflərin əsərlərində bu anlayış müxtəlif cür ifadə edilir: zərurət, motivlər, məqsədlər, arzu, ehtiras, tələbat, sövqetmə, mükafatlandırma, məramlar. Lakin "motivləşdirmə" latın sözü olub "sövqetmə", "oyatmaq" mənası verir.

Motivasiya insanı hərəkətə gətirən güc və hərəkətlərin istiqamətini müəyyənləşdirən, onların düşüncələri, ümidləri, inamları, arzu, tələbat və qorxularıdır.

Motivasiya insan münasibətlərinə istiqamət verən ən önəmli amillərdən biridir. Formasından asılı olmayaraq bütün müəssisələr, qurum və təşkilatların ortaq hədəfi insanların fəaliyyətlərini, öz məqsədlərini gerçəkləşdirməyə yönəltməkdir. İşdən asılı olmayaraq nəticə etibarilə istənilən məqsəd işin həyata keçirilməsidir. Bu işin görülməsi isə insanın istəkli olması, işi mənimsəməsi və yetərincə səy göstərməsindən asılıdır. Bu istəyi yaradan fərdin motivasiya səviyyəsidir.

Motivləşdirmə insanla bağlı olduğuna görə onun daxili və xarici hərəkətverici qüvvələrinin məcmusunu təşkil edir.

Tələbələrin təlim fəaliyyəti motivasiyasında səriştəli müəllimin nəzəri hazırlığı, onun analitik, proqnostik, planlaşdırıcı, layihələşdirici, habelə refleks bacarıqlarının olması önəmlidir.

Səriştəli müəllimin praktik hazırlığı onun təşkilatçılıq, səfərbər etmə, informasiya vermə, inkişaf etdirmə, maarifləndirmə, perseptiv, kommunikativ, didaktik, akademik bacarıq və qabiliyyətlərinin olmasını tələb edir.

Səriştəli müəllimin pedaqoji bacarıqlarını əsasən dörd qrupa ayırmaq olar:

- Tələbə kollektivinin yeni biliklər qazanmasını nəzərə alaraq, onların pedaqoji, psixoloji səviyyələrinə uyğun konkret pedaqoji vəzifələri müəyyənləşdirmək bacarığı;

- Öz fəaliyyətini planlaşdırmağı və layihələşdirməyi bacarmaq, təlim-tərbiyə prosesində düzgün forma və metodları seçə bilmək qabiliyyətinə malik olmaq bacarığı.

- Tələbələri fəallaşdırmaq, birgə fəaliyyət göstərmək, inkişaf etdirmək üçün lazımi əlverişli şərait və imkanları yarada bilmək bacarığı.

- Öz pedaqoji fəaliyyətinə nəzər yetirməyi, nəticələri düzgün qiymətləndirməyi, pedaqoji prosesi və öz fəaliyyətini düzgün təhlil edə bilmək bacarığı.

Ümumi şəkildə səriştəli müəllimin pedaqoji fəaliyyətində əsasən aşağıdakı cəhətləri xüsusilə ayırmaq olar:

- Müəllim öz bilik və dünyagörüşünü, ixtisasını daim inkişaf etdirir və təkmilləşdirir;

- Pedaqoji vəziyyəti düzgün anlayır, öz imkanlarını dəyərləndirir və düzgün qərar çıxarmağı bacarır;

- Müəllim - tələbə münasibətlərini düzgün qurur;

- Dəyişən və mürəkkəb şəraitə uyğunlaşır, pedaqoji kollektivlə həmrəy olur;

- Yenilikçidir, yeni pedaqoji üsullardan, texnologiyalardan istifadə etməyi bacarır;

- İxtisasını dərindən bilir və pedaqoji problemləri həll etmək iqtidarındadır;

- İxtisasının, pedaqoji, psixoloji problemlərin tədqiqatçısıdır;

Səriştəli müəllimin şəxsi keyfiyyətlərini belə qruplaşdıra bilərik:

Səriştəli müəllim bilik, bacarıq və yanaşmaları fəaliyyət meyarlarının toplusuna müvafiq şəkildə tətbiq etməyi bilir və bu onun fəaliyyətinin əsasını təşkil edir.

Səriştəli müəllim qloballaşan dünyamızda dünyanın sürətlə dəyişilməsini, daim artan məlumat axınını, vaxt məhdudiyyətinin artmasını, cəmiyyətdə baş verən sosial prosesləri, ekoloji fəlakətləri və s. bilməlidir. Əks təqdirdə pedaqoji prosesdə uğur qazanmaqdan söhbət gedə bilməz. Təhsil sistemində gedən müntəzəm yeniləşmələr, pedaqoji innovasiyalar və təlim texnologiyaları müəllim hazırlığının tətbiqini zəruri etmişdir.

Səriştəli müəllim tədris etdiyi fənnini sevir və bu fənni tələbələrə sevdirməyi bacarır. Tələbələrini sevən, onlara bağlanan müəllimlər tədrisdə uğurlar qazanırlar. Tədris prosesində tələbə-müəllim münasibətləri qarşılıqlı inam və məhəbbət əsasında qurulmalıdır.

❖ Müəllim yüksək əqidə, məslək sahibi olmalı, müəllim – Vətəndaş olmalıdır. O, xalqın, Vətənin problemləri ilə yaşamalı, gəncliyi də bu ruhda yetişdirməlidir. Müəllimlik-vətənpərvərlik peşəsidir. Məhz müəllim uşaqları, gəncləri vətənə məhəbbət ruhunda tərbiyə edir, onları vətənin müdafiəsinə hazırlayır.

❖ Müəllim yüksək mədəniyyətə və mənəviyyata malik olmalıdır. O, özündə zahiri və daxili mədəniyyəti, nəcib əxlaqi keyfiyyətləri (düzlük, ədalətlilik, xeyirxahlıq, humanizm, sadəlik və b.) cəmləşdirməlidir. Müəllim tərbiyə işinə özündən başlamalıdır, çünki özündə olmayan keyfiyyəti başqalarına vermək olmaz.

❖ Müəllim yüksək nüfuz sahibi və tələbələrə nümunə olmalıdır. Dərin bilik, mədənilik, mənəviyyat nümunəsi olan müəllimin nüfuzu da yüksək olur. Nüfuzu qazanmaq çətin, itirmək isə asandır: yersiz hərəkət, ədalətsiz münasibət, ehtiyatsız söz müəllimi nüfuzdan sala bilər. Buna görə də, hər bir müəllim sözlərinə və hərəkətlərinə məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

Bu göstərilən yolların səmərəli olması üçün müəllimin özünün fəallığı, təşəbbüskarlığı, öz üzərində daim çalışması, öz pedaqoji səriştəsini müntəzəm olaraq yüksəltməyə cəhd göstərməsi əsas şərtdir.

Buna görə də müəllimin səriştəliliyinin yüksəldilməsi üçün motivin və əlverişli şəraitin yaradılması vacibdir. Elə bir şərait yaradılmalıdır ki, müəllim öz üzərində çalışmasının, peşə səriştəsini yüksəltməsinin vacib olduğunu dərk etsin, bunsuz uğur qazana bilməyəcəyinə, irəli gedə bilməyəcəyinə inansın.

Nəticə etibarilə hər bir tələbə də başa düşməlidir ki, müəllim doğumundan ölümünə qədər, bir ömür boyu həyatı şəkilləndirən müqəddəs ustaddır. Millətinə, tale yollarında rəhbərlik edib onun əxlaq və xarakterini yüksəldən və ona əbədilik şüurunu aşılayan, ətrafında mələklərin cəmləşdiyi bu ali varlığa bərabər yer üzündə ikinci bir varlıq göstərilə bilməz. Müəllimin insan üzərində təsiri, ana, ata və cəmiyyətin təsirindən qat-qat üstündür. Əslində, ananı da, atam da, hətta cəmiyyəti də yoğuran odur. O, Allahın

insanları yüksəldib alçaltmasında istifadə etdiyi bir əl və bir dildir.

**Problemin aktuallığı**. Tələbələrin təlim fəaliyyəti motivasiyasında səriştəli müəllimin nəzəri hazırlığı, onun analitik, proqnostik, planlaşdırıcı, layihələşdirici, habelə refleks bacarıqlarının olması önəmlidir.

**Problemin elmi yeniliyi**. Motivasiya insan münasibətlərinə istiqamət verən ən önəmli amillərdən biridir. Formasından asılı olmayaraq bütün müəssisələr, qurum və təşkilatların ortaq hədəfi insanların fəaliyyətlərini, öz məqsədlərini gerçəkləşdirməyə yönəltməkdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədən ali və orta ixtisas məktəblərin müəllimləri, tələbələri, eləcə də psixoloqlar və pedaqoqlar istifadə edə bilərlər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu, 1999, 72 s.
2. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası". "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr
3. Abbasov, A.N. Pedaqogika: orta ixtisas məktəbləri üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2013.
4. Paşayev Ə., Rüstəmov F.. Pedaqogika (yeni kurs): Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2007
5. Süleymanova A.Y. Təhsilin əsasları. Bakı, "Təhsil", 2014, 399 s.


**E-mail:** zulfiyye.tanriverdi@gmail.com

**Rəyçilər:** ped.ü.fəls.dok. **İ.B. Əmirəliyeva**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub: 20.09.2023**